***"Yay fəsli təzə başlayanda hamımız düşünürdük ki, iyunun əvvəlində yoluxma sayındakı ikirəqəmli göstəricilər belə də davam edəcək. Təəssüf ki, operativ qərargah tərəfindən həm bəzi məhdudiyyətlərin aradan götürülməsi – kütləvi tədbirlərin keçirilməsinə, şənliklərin təşkilinə, bir sıra qapalı məkanlara daxil olmağa icazənin verilməsi – əhalidə arxayınlıq yaratdı. Yoluxma son günlər kəskin artıb". Bu fikirləri ATU-nun Tədris Cərrahiyyə Klinikasının şöbə müdiri, tibb elmləri üzrə fəlsəfə doktoru Nurlana Əliyeva koronavirusla bağlı son durumu müzakirə edərkən bildirdi. O, virusun daha da aktivləşdiyini diqqətə çatdıraraq dedi:***

# Yoluxma sayının 4 mindən çox olması çox ciddi siqnaldır



– Pandemiya təzə başlayanda isti havanın virusu məhv etdiyini, onun çoxalmasına imkan vermədiyini deyirdilər. Amma görünən odur ki, isti hava da virusa təsir etmir və hazırda virus daha da aktivləşib. Avtobuslarda, metroda sıxlıq olur. Yay fəslidir, təbii ki, insanlar çimərliklərə, hovuzlara üz tuturlar, bölgələrə axın edirlər. Tətil olduğuna görə əhali bir-birinin evinə qonaq gedir. Bu da yoluxma sayına təsirsiz ötüşməyib və acınacaqlı vəziyyət yaranıb. Son günlər vəfat edənlərin sayı 40-dan çoxdur. Bu dövrdə insanların immuniteti aşağı düşür, isti havanın təsirindən onlar işdə, evdə kondensioner, ventilyatorlardan istifadə etməyə məcbur olurlar. Tərləyirlər, buna görə də soyuqdəymə xəstəlikləri çoxalır. İnsanlar başqalarına diqqətli olsalar da, həmişə özlərinə qarşı məsuliyyətsiz olublar. İctimai nəqliyyatda yenə də maskanı ya düzgün taxmırlar, çənədən aşağıya endirirlər və ya ümumiyyətlə, taxmırlar, qollarına keçirirlər. Üstəlik, telefonla uzun-uzadı danışırlar. Bu da virusun daha çox yayılmasına səbəb olur. Mütəxəssislərimiz, alimlərimiz il yarımdan çoxdur ki, tövsiyə edirlər, məsləhətlər verirlər. Ancaq insanlar onlara yox, hansısa sadə vətəndaşın uydurmalarını, fərziyyələrini dinləyir, onlara inanırlar. Cümlələrini başlayanda "elə deyirlər, belə deyirlər" – deyib alimlərin fikirlərinə yox, sosial şəbəkədən tanıdıqları "həkim" dostlarına, ya da elmdən, təhsildən anlayışı olmayıb "bunların məqsədi milləti qırmaqdır" – deyən tanışlarına qulaq asıb onlardan misal çəkirlər. Hər kəs deyir ki, biz peyvənd olunmuşuq, hər şey yaxşıdır. Bu rahatlıqla da qaydalara əməl etmək istəmirlər. Bəzi insanları isə hazırda saxta COVID–19 pasportu düşündürür. Onu almağın yollarını axtarırlar.

**– Statistikaya görə hazırda koronavirusa yoluxanların 90 faizi peyvənd olunmayan insanlardır.**

– Təbii ki, belə olmalıdır. Xəstəxanalarda, reanimasiyada yatanların 96 faizi vaksin vurdurmayanlardır. Xəstəliyi ağır keçirənlərin də 99 faizi vaksin olunmayanlardır. Peyvənd vurduranların böyük əksəriyyəti virusa yoluxsalar belə, xəstəliyi yüngül keçirir. Proqnozlarım isə bədbindir. Güman ki, belə getsə, payıza doğru yoluxmaların sayı daha da artacaq.

**– Bu bəladan qurtulmağın yeganə yolu peyvənddir, deyəcəksiniz...**

– Əlbəttə ki, elədir. Pandemiyadan az itkilərlə çıxmağımız üçün xilas yolumuz, həmişə dediyimiz kimi, peyvənd olunmaqdır. Vaksinasiyanın sürətləndirilməsi və insanların real vaksin olunması vəziyyətdən yeganə çıxış yoludur. Saxta pasportların verilməsinin qarşısını almaq lazımdır. İnsanlar açıq-aydın saxta pasportun qiymətini müzakirə edirlər. Bununla bağlı tədbirlər görülür, kimlərsə məsuliyyətə cəlb edilir, amma yenə bəzilərinə dərs olmur.

Bir insan düşünməlidir ki, xəstəlikdən qorunmaq üçün vaksin vurdurub immunitet qazanmalıdır. Əgər saxta yolla COVID pasportu alanda bədənində virusa qarşı bu antitellər yaranmayacaqsa, onda özünə sual verməlidir ki, mən kimi aldadıram? Peyvənd olunub infeksiyaya yoluxaramsa, yüngül keçirməyim yaxşıdır, yoxsa yoluxub xəstəxanaya, orada da ağırlaşıb reanimasiyaya düşmək yaxşıdır? Hələ oradan da sağ çıxam, çıxmayam...

Ona görə də insanlara çağırış etmək istəyirəm ki, nə qədər gec deyil, dövlətin sizə yaratdığı bu əvəzsiz və təmənnasız xidmətlərə kölgə salmayın, özünüzün sağlamlığınız üçün bu mühüm imkandan istifadə edin, peyvəndlənin. Unutmayın ki, yalnız vaksin vurdurmaqla hər şey bitmir, üstəlik, bütün qorunma tələblərinə, gigiyenik qaydalara əməl etməyiniz də vacibdir. İki gün əvvəl ölüm sayında qeydə alınan 43 rəqəmi sabah arta bilər və onların arasında yaxınlarınız da ola bilər. Yoluxma sayının gündəlik 4 min nəfərdən çox olması artıq çox ciddi siqnaldır və üz verə biləcək bəladan Allah qorusun!

***Qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***